***AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ***

***P O L İ S   A K A D E M İ Y A S I***

***KAFEDRA: "CİNAYƏT PROSESİ"***

# *ƏYANİ TƏHSİL*

# *M Ü H A Z İ R Ə*

***MÖVZU* № 16. "Məhkəmə baxışının ümumi şərtləri və məhkəmə baxışının hissələri".**

**Vaxt - 8 saat**
**Müh.- 2 saat**
**Sem. - 4 saat**
**Təc.- 2 saat**

***TƏRTİB ETDİ***: "Cinayət prosesi" kafedrasının
baş müəllimi, polkovnik-leytenantı
**Anar Mikayılov**

Mühazirə kafedranın iclasında müzakirə olunub və təsdiq edilmişdir.
Protokol №____ "____" ________________ 2021- cı il.

**B A K I -2021**

### *MÖVZU* № 16. “Məhkəmə baxışının ümumi şərtləri” və məhkəmə baxışının hissələri”.

## P L A N :

***GİR İŞ:***

1. Məhkəmə baxışında ümumi şərtlərinin anlayışı və əhəmiyyəti. Sədrlik edənin səlahiyyətləri.
2. Təqsirləndirilən şəxsin müdafiəsinin, zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin və onların nümayəndələrinin məhkəmə baxışında iştirakı.
3. Məhkəmə baxışının hədləri, məhkəmə baxışının təxirə salınması və dayandırılmasının əsasları və prosessual qaydası.

***NƏTİCƏ:***

## *Ə D Ə B İ Y Y A T:*


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,1995-ci il. mad. 60; 65
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. Bakı, 2021-ci il. mad. 308-321.
3. Məhkəmələr haqqında Qanun. Bakı, 1997-ci il.
4. Azərbaycan Respublikası Məhkəmələrinin təşkili və fəaliyyətinin təmin edilməsi haqqında (Azərbaycan Respublikası Prezidentinin 12 iyun 1999-cu il tarixli Fərmanı). “Hüquqi dövət və qanun” jurnalı № 6.
5. M.Cəfərquliyev. “Cinayət prosesi”. Dərslik. Bakı, 2005-ci il. səh. 557-627.
6. C.H.Mövsümov. “Cinayət prosesi”.Dərslik. Bakı, 1989-cu il. səh. 213-230.
7. S.B.Borodin. “Uqolovnıy proses”.Uçebnik. Moskva, 1982. str. 387-405.
8. K.F.Qusenko. “Uqolovnıy proses”.Uçebnik. Moskva, 1998.

**Əlavə:**

1. M.S.Stroqoviç. “Predumpçiya nevinovnosti i pravo obvinayinovo na zaşitu”. M, 1984 q.
2. P.A. Luçinskaya, V.M.Uskov. “Uqolovnıy proses”. M, 1976 q. str.123-128.
3. CM mad. 289. “Məhkəməyə hörmətsizlik etmə”.
4. U.X.M. mad. 311. “Məhkəməyə hörmətsizlik göstərilməsi”.

8. Cinayət prosesi fənn proqramı Bakı 2018

9. Firuzə Abbasova “Cinayət prosesi” Dərslik. Ümumi hissə.Bakı 2021”Zərdabi LTD” MMC, 2012, 416 s.
10. Cinayət prosesi. Məsələlər Toplusu N.Əliyev, S.Ağayev, A. Mikayılov, İ.Eyyubov, V. Qasımov, Bakı: Mütərcim, 2014-216 səh.
11. Abbasova F.M “Cinayət prosesində xüsusi icraatlar” Dərs vəsaiti. Bakı “Ecoprint”, 2018,192
12. Azər İsmayılov “Cinayət prosesində məhkəmə icraatı” (Dərs vəsaiti) Bakı 2016. AR DTX-nın Hetdər Əliyev adına Akademiyasının Nəşriyyat-poliqrafiya mərkəzi-

# G İ R İ Ş

İbtidai araşdırma prokurorluq məhkəmə orqanları ədalət mühakiməsinin vəzifələrini həyata keçirərək Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanın rəhbər tutmalıdırlar. Bu fərmana əsasən insan hüquqlarına hörmət, insan hüquqlarının qorunması, müasir dünyaya qovuşmağın əsas yoludur.

Fərmanda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənabları Azərbaycan Respublikasının prokurorluğuna Daxili İşlər və Milli Təhlükəsizlik Nazirlərinə, habelə Ali Məhkəməyə tapşırılmışdır ki, təhqiqat, istintaq və məhkəmə orqanları tərəfindən insan hüquqları sahəsində qanunvericiliyin tətbiq təcrübəsinin ümumiləşdirilməsinin, insan hüquq və azadlıqlarının pozulması hallarının aradan qaldırılmasını təmin etsinlər, eyni zamanda azadlıqdan məhrum edilmiş və ibtidai araşdırma zamanı həsbə alınmış şəxslərin saxlanılması şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirsinlər. Məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır.

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikası Məhkəmələrində işlərə kollegial və hakim tərəfindən təkbaşına: birinci instansiya məhkəməsində işlərə təkbaşına və ya üç hakimdən ibarət tərkibdə, yazudandlı iclasçılardan

ibarət tərkibdə: apelyyasiya və kassasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət tərkibdə baxılır.

Məhkəmələr işlərə baxarkən Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və digər qanunvericilik aktlarını eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar.

Məhkəmədə işlərə baxılarkən cinayət prosessual qanunvericiliyində məhkəmə baxışının ümumi şərtləri müəyyən edilmişdir.

Məhkəmədə cinayət işlərinə, məhkəməyə qədər sadələşdirilmiş işlər üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə baxılarkən qanunla müəyyən edilmiş ümumi şərtlərə riayət olunmaldırı. Beləliklə bu günkü mühazirədə biz məhkəmə baxışının ümumi şərtlərini araşdırağıq.

### *Sual 1. Məhkəmə baxışının ümumi şərtlərinin anlayışı və əhəmiyyəti. Sədrlik edənin səlahiyyətləri.*

Məhkəmə iclasında sədrlik edən: qanunvericilik məhkəmə iclasına rəhbərlik etmək vəzifəsini bilavasitə sədrlik edən hakimin üzərinə qoyulur. Bir qayda olaraq rayon (şəhər) məhkəməsinin iclasda hakim, hər hansı başqa məhkəmənin iclasında isə sədr və onun sədrlik etmək üçün təyin etdiyi məhkəmə üzvü sədrlik edir. Cinayət-prosessual qanunvericiliyi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsini təmin etmək məqsədi ilə sədrlik edən geniş hüquqlar vermişdir.

Azərbaycan Respublikası CPM-in 81-ci maddəsinə müvafiq olaraq “Sədrlik edən məhkəmə istintaqını, cinayət işinin bütün hallarının tam tərəfli və obyektiv araşdırılmasını təmin etməyə yönəldərək, təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bərabər qazandıran, habelə onun məsuliyyətini həm ağırlaşdıran, həm də yüngülləşdirən halları aydınlaşdıraraq və baxılan işlə əlaqəsi olmayan hər şeyi məhkəmə baxışından kənar etməklə, məhkəmə iclasına rəhbərlik edir. Qanun məhkəmə iclasına rəhbərlik etmək vəzifəsini sədrlik edənin üzərinə qoyarkən ona heç də təkbaşına hakimiyyət hüququ vermir. Məhkəmə iclasının hakimləri işin baxması və hökm çıxarılması zamanı baş verən bütün məsələlərin həllində məhkəmə iclasında sədrlik edənlə bərabər hüquqlardan istifadə edirlər (CPM-in 80-cı maddəsi). Buna görə də sədrlik edən məhkəmə iclasına rəhbərlik edərkən məhkəmənin adından hərəkət edə rvə məhkəmə baxışı prosesində

meydana çıxan hər hansı məsələ, o cümlədən sədrlik edənin hərəkəti barəsində məsələ səslərin çoxluğu ilə bütün məhkəmə tərəfindən həll edilir”.

Sədrlik edənin məhkəmə iclasına rəhbərliyi sərəncamverici xarakter daşıyır. O, məhkəmə baxışı prosesində rəhbərlik etməklə işlərə baxılmasında cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara ciddi riayət olunmasını təmin edir.

Sədrlik edən obyektiv və qərəzsiz olmalıdır. O, proses iştirakçılarına məhkəmə baxışında malik olduqları hüquqlar və bu hüquqların həyata keçirilməsinin qanunla müəyyən edilmiş prosessual vasitələrin izah etməli və bu hüquqların həyata keçirilməsini təmin etməlidir.

Prosesin bütün iştirakçıları, eləcə də məhkəmə iclası salonunda olan vətəndaşların hamısı sədrlik edənin məhkəmə iclasının müəyyən olunmuş qaydalarına əməl etmək haqqında sərəncamlarına sözsüz tabe olmalıdırlar. Məhkəmə iclası vaxtında təqsirləndirilən şəxs tərəfindən qayda pozulduqda sədrlik edən təqsirləndirilən şəxsi xəbərdar edir ki, göstərilən hərəkətləri etdikdə, o, iclas salonundan çıxarılacaqdır. Təqsirləndirilən şəxs tərəfindən qayda təkrarən pozulduqda, məhkəmənin qərarı ilə o, iclas salonundan çıxarıla bilər.

Sədrlik edənin sərəncamlarına ittihamçı və ya müdafiəçi tərəfindən əməl olunmadıqda məhkəmə bu barədə müvafiq yuxarı prokurora, vəkillər kollegiyasının rəyasət heyətinə və ya ictimai təşkilata xəbər verir. Bununla belə işə zərər vurmadan həmin şəxsin başqası ilə əvəl edilməsi mümkün deyildirsə, məhkəmənin qərarı ilə işin baxılması təxirə salına bilər.

İşdə iştirak edən digər şəxslər məhkəmə iclasında qaydanı pozduqları və sədrlik edən sərəncamlarına tabe olmadıqları halda, məhkəmənin qərarı ilə, prosesin iştirakçısı olmayan şəxslər isə sədrlik edənin sərəncamı ilə iclas salonundan çıxarıla bilər və bundan başqa məhkəmə tərəfindən cərimə oluna bilərlər. 3 saatdan 48 saatadək tutula bilərlər (Azərbaycan Respublikası CPM. m. 310.6).

Məhkəmə baxışının bilavasitəliyi və şifahiliyi. Məhkəmə baxışının bilavasitəliyi dedikdə, məhkəmənin iş üzrə toplanmış sübutlarla şəxsən tanış olması, onları bilavasitə araşdırıb təhlil etməsi, təqsirləndirilən şəxsin, şahidlərin ifadələrini və ekspertin rəyini bilavasitə dinlənməsi, işdə olan maddi sübutların və sənədlərin əsli ilə tanış olması başa düşülür. Buna müvafiq olaraq məhkəmə iclasında cinayət işinə baxılması təqsirləndirilən şəxsin iştirakı ilə olmalıdır. Məhkəmə tərəfindən təqsirləndirilən şəxsin ifadəsini və onun elan edilən ittiham münasibətini bilavasitə dinləmədən işi mahiyyət üzrə həll edə bilməz. Buna görə də qanun məhkəmədə təqsirləndirilən şəxsin iştirakı olmadan işin baxılmasına müstəsna hallarda yol verir (Azərbaycan Respublikası CPM-nin 311-ci maddəsi).

Qanun ifadələri işin hallarının aydınlaşdırılması və müəyyən edilməsi üçün əhəmiyyət kəsb edən şahidlərin iştirakı olmadan işə baxılmasına da yol vermir. Yalnız müstəsna hallarda şahidin məhkəməyə gəlməsini aradan qaldıran hallar müəyyən edilditkdə, şahid öldükdə, ağır xəstələndikdə və s. onun ifadəsi elan oluna bilər. Məhkəmə digər sübut mənbələrini: ekspert rəyini, maddi sübutları və yazılı sənədləri və bilavasitə araşdırmalı, qavramalı və təhlil etməlidir.

Qanunvericilik bir sıra hallara bilavasitəçilik prinsipindən istisna olaraq ibtidai istintaq zamanı verilən ifadələrin məhkəmə baxışında elan edilməsinə və səs yazısının dinlənməsinə yol verir (Azərbaycan Respublikası CPM-nin 327-ci maddəsi).

Bilavasitəçilik həm də tələb edir ki, məhkəmə işi üçün əhəmiyyətə malik olan faktlar barəsindəki məlumatları ilk mənbədən asılı. Buna müvafiq olaraq məhkəmə işin mahiyyəti üzrə həlli üçün əhəmiyyətə malik olan sənədin surətindən deyil, əslində başqasının dediklərinə əsaslanan şəxsin deyil, hadisəni bilavasitə müşahidə edən şahidin ifadəsindən və s. istifadə etməlidir. Lakin iş üçün ifadəsi mühüm əhəmiyyət kəsb edən şahid öldükdə, yaxud sənədin əsli məhv olduğu hallarda bilavasitəçilik prinsipi pozulsa da məhkəmədə sənədin surətindən, şahidin ibtidai istintaq zamanı

verdiyi ifadədən istifadə edilməlidir. Göstərilən qaydada alınan məlumatlar işdə olan sübutlarla təsdiq edilərsə və bu məlumatların həqiqiliyinə heç bir şübhə oyanmazsa məhkəmə hökm çıxararkən həmin məlumatlardan sübut kimi istifadə edə bilməz.

Məhkəmə baxışında tədqiqat predmetinə aid olan bütün məsələlər bir qayda olaraq şifahi müzakirə edilir. Azərbaycan Respublikasının CPM-nin 349-cu maddəsi müəyyən edir ki, birinci instansiya məhkəmə işə baxarkən işə aid olan sübutları bilavasitə araşdırmalı, təqsirləndirilən şəxsləri və şahidləri dindirməli, ekspertlərin rəyini dinləməli, maddi sübutlarları nəzərdən keçirməli, protokolların və s. sənədləri elan etməlidir. Bu o deməkdir ki, iş üzrə toplanmış sübutlar məhkəmə baxışında şifahi müzakirədən keçirilməzsə, məhkəmə hökm çıxararkən həmin sübutlara əsaslana bilməz.

Göründüyü kimi məhkəmə baxışının bilavasitəliyi məhkəmə baxışının şifahiliyi ilə sıx əlaqədardır. Əgər şifahilik prinsipini məhkəmə ilə işdə iştirak edən şəxslər arasında əlaqə yaranmasından müəyyən formasıdırsa bilavasitəlik iş üzrə sübut sənbələrinin məhkəmə tərəfindən qavraması üsuludur. Məhkəmə baxışının göstərilən qaydada aparılması ilə proses iştirakçıları arasında, həmçinin onların məhkəmə arasında real və işgüzar əlaqə yaranır, məhkəmə istintaqında araşdırılan bütün sübutlar haqqında həminki proses iştirakçılarında, həm də məhkəmənin iclas salonunda olan şəxslərdə tam təsəvvür əmələ gəlir və bununla da məhkəmənin tərbiyəvi rolunun güclənməsinə, habelə iş üzrə obyektiv həqiqətin müəyyəe edilməsinə təminat yaradır.

**Məhkəmə baxışında prokurorun iştirakı**. Prokurorun məhkəmədə dövlət ittihamçısı kimi çıxış etməsi məhkəmədə irəli sürülmüş ittihamı müdafiə etmək üçün qanunla ona verilmiş hüquqlardan istifadə edir və vəzifələrini yerinə yetirir. Prokuror məhkəmə baxışında iştirak etməklə iş materiallarını hərtərəfli təhlil edilməsində və onun hallarının tam obyektiv araşdırılmasında cinayət əməlinin hüquqi və siyasi cəhətdən düzgün

qiymətləndirməsində habelə təqsiri olan şəxslərin ifşa edilməsində məhkəməyə fəal kömək göstərir. Azərbaycan Respublikasının CPM-in 314-cü maddəsində əsasən prokuror məhkəmə qarşısında dövlət ittihamını müdafiə edir, sübutların araşdırılmasında iştirak edir, məhkəmə baxışı zamanı baş verən bütün məsələlər üzrə rəy verir, təqsirləndirilən şəxs haqqında cinayət qanunun tətbiq edilməsi və cəza tədbirləri barəsində öz mühazirələrini məhkəməyə bildirir. Beləliklə, məhkəmə təqsirləndirilən şəxsin təqsirini sübut etmək vəzifəsi əsasən dövlət ittihamçısı kimi çıxış edən prokurorun üzərinə düşür. Prokuror bu vəzifəni yerinə yetirmək məqsədilə ittihamın əsaslandığı sübutları məhkəməyə təqdim edir, işin bütün hallarının araşdırılmasında iştirak edir və obyektiv həqiqətin müəyyən edilməsində məhkəməyə kömək edir.

Prokuror ittihamı müdafiə edərkən obyektiv və qərəzsiz olmalıdır. O, məhkəmə itsintaqının məlumatları əsasında təqsirləndirilən şəxsə elan olunmuş ittihamı dəyişdirməyən zəruri olması nəticəsinə gələrsə, bu barədə məhkəməyə öz fikrini bildirməlidir. Prokuror məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxs elan olunmuş ittihamın təsdiq edilmədiyi imkanına gələrsə ittihamdan imtina etməli və bütün motivlərin məhkəməyə şərh etməlidir. Lakin prokurorun ittihamdan imtina etməsi məhkəmənin işə baxmağı davam etdirməkdən azad etmir.

Xüsusi ittiham qaydasında cinayət tətbiq qaydasındakı hallar istisna olmaqla, məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edərkən prokuror qanunla nəzərdə tutulmuş qaydalara riayət etməklə aşağıdakı hüquqlara malikdir:

1. etirazlar etmək;

2. vəsatətlər vermək;

3. məhkəmə həll edilən məsələlər və cinayət prosesinin digər iştirakçılarının vəsatətləri üzrə öz rəyini bildimrək;

4. ittiham tərəfinin sübutlarını məhkəməyə təqdim etmək, habelə məhkəməyə sübutların təqdim edilməsi məqsədilə məhkəmənin qərarı ilə prosessual məcburiyyət tədbirləri tətbiq etmək;

5. birinci və apellyasiya instansiyası məhkəmələrində məhkəmə istintaqında və işin materiallarının tədqiqində iştirak etmək;

6. birinci instansiya məhkəməsinin iclasında andlı iclasında andlı iclasçıların seçilməsində iştirak etmək;

7. müdafiə tərəfinin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

8. qeyd olunmalı hərəkətlərin istintaq və digər prosessual hərəkətlərin protokoluna və ya məhkəmənin iclas protokoluna daxil edilməsini tələb etmək;

9. qanunda göstərilən hallarda təqsirləndirilən şəxsə qarşı cinayət təqibindən imtina etmək;

10. birinci apellyasiya instansiyası məhkəmələrində giriş və yekun nitqi habelə replika söyləmək, kassasiya instansiyası məhkəməsində isə baxılan məsələ üzrə çüxüş etmək;

11. hökmdən və məhkəmənin digər qərarından protest vermək;

12. qanunla nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

Prokuror məhkəmə baxışında iştirak edərkən dövlət mənafeyinin və vətəndaşların hüquqlarının qorunması tələb edilən halları müəyyən edərsə, o, mülki iddia verməyə və ya zərər çəkmiş şəxs tərəfindən verilmiş mülki iddianı müdafiə etməyə haqdadır.

**1-ci sual üzrə nəticə.** Beləliklə, müəyyən etdik ki, cinayət işinin məhkəmə baxışı zamanı tamlığını, hərtərəfliyinin və obyektivliyinin təmin etmək məqsədli ilə cinayət prosessual qanunvericiliyi məhkəmə baxışının ümumi şərtlərini müəyyən etmişdir ki, bu da aşağıdakılardır: məhkəmə tərkibinin dəyişilməzliyi ehtiyatda olan hakim; sədrlik edən; məhkəmə iclasında qaydanı təmin etmək; təqsirləndirilən şəxsin məhkəmə baxışında iştirakı və onun gəlməməsinin nəticələri; müdafiəçinin, zərər çəkmiş şəxsin,

xüsusi ittihamçının, mülki iddiaçının və cavabdehin və onların nümayəndələrinin iştirakı və s. aşağıdakı baxılacaq şərtlər.

### *Sual 2. Təqsirləndirilən şəxsin, müdafiəçinin zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin və onların nümayəndələrinin məhkəmə baxışında iştirakı.*

Cinayət-prosessual qanunvericiliyi bir qayda olaraq məhkəmədə işə baxılarkən təqsirləndirilən şəxsin iştirakını mütləq tələb edir. Odur ki, təqsirləndirilən şəxs məhkəmə iclasına gəlmədikdə məhkəmə baxışı təxirə salınmalıdır. Məhkəməyə gəlməyən təqsirləndirilən şəxsi gətirməyə və ya onun haqqında qətimkan tədbirini dəyişdirməyə haqlıdır. Ümumiyyətlə təqsirləndirilən şəxsin məhkəməyə gəlməməsi nəticəsində işə həmin məhkəmə iclasında baxmaq mümkün olmazsa, məhkəmə işin baxılmasını təxirə salmalı və gəlməyən təqsirləndirilən şəxsin çağırılması üçün tədbirlər şəxs onun məhkəməyə gəlməsi imkanını aradan qaldıran ruhi və ya başqa ağır xəstəliyə tutularsa və bu zaman onun iştirakı olmadan işə baxmaq mümkün olmazsa, məhkəmə təqsirləndirilən şəxs sağalanadək məhkəmə baxışını dayandırmalıdır.

Qanun müstəsna hallarda işə təqsirləndirilən şəxsin iştirakı olmadan baxılmasına yol verir. Məsələn (Azərbaycan Respublikasının CPM-nin 311-ci maddəsinə əsasən təqsirləndirilən şəxsin iştirakı olmadan işin baxılmasına yalnız o hallarda yol verilir ki, təqsirləndirilən şəxs respublikadan kənarda olub məhkəməyə gəlməkdən qəsdən boyun qaçırsın təqsirləndirilən şəxsin iştirakı olmadan işin baxılmasına bir də o halda yol verilir ki, böyük ictimai təhlükə törətməyən cinayətdə təqsirləndirilən şəxs ona qarşı irəli sürülən ittiham məhkəmədə onun iştirakı

olmadan baxılması barədə vəsatət vermiş olsun. Lakin belə hallarda təqsirləndirilən şəxsin müdafiəçisinin işitirakı məcburi hesab edilir.

Təqsirləndirilən şəxsin məhkəmə baxışında tutduğu vəziyyət, onun ibtidai istintaqdakı prosessual vəziyyətindən cici fərqlənir. Bu hər şeydən əvvəl, təqsirləndirilən şəxsin məhkəmə baxışında ibtidai istintaqa nisbətən geniş hüquqlara və prosessual imkanlara malik olması ilə izah olunur. İbtidai istintaqdan fərqli olaraq məhkəmə baxışında təqsirləndirilən şəxs ittihamçı ilə bərabər hüquqa malik olan bir tərəf kimi çıxış edir, ittihamın əsaslarına qarşı özünün dəlillərinin irəli sürmək hüququ qazanır və beləliklə də, məhkəmə istintaqının fəal iştirakçısına çevrilir. Məhkəmə baxışında müstəntiq tərəfindən formula edilmiş ittiham prokurorun, təqsirləndirilən şəxsin və prosesin digər iştirakçılarının gərgin müzakirə obyektinə çevrilir. Prosesin bu mərhələsində iş üzrə toplanmış hər bir sübut təqsirləndirilən şəxsin iştirakı ilə araşdırılır və təhlil edilir. Təqsirləndirilən şəxs məhkəmə baxışında şahidlərə, ekspertlərə, digər təqsirləndirilən şəxslərə sual vermək maddi sübutların araşdırılmasında iştirak etmək, şahidlərin, ekspertlərin və digər təqsirləndirilən şəxslərin ifadələri haqqında izahat vermək hüququna da malikdir.

Azərbaycan Respublikasının CPM-nin 91-ci maddəsində müvafiq təqsirləndirilən şəxs:

1) hakimlərə, prkurora, ekspertə, tərcüməçiyə etiraz etmək;

2) vəsatətlər vermək və zərər çəkmiş şəxs, mülki iddiaçı mülki cavabdeh və onların nümayəndələri tərəfindən, başqa təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, qanuni nümayəndələri tərəfindən, habelə prokuror və xüsusi ittihamçı tərəfindən verilmiş vəsatətlər barəsində öz fikrini bildirmək;

3) təqdim etdiyi sübutların işə əlavə olunması haqqında şahidlərin çağırılması haqqında ekspertiza təyin olunması işdə olan sübutların elan olunması və başqa sübutların tələb olunması haqqında məhkəmədən xahiş etmək;

4) şahidlərə, ekspertə, digər təqsirləndirilən şəxslərə zərər çəkmiş şəxsə, mülki iddiaçıya və mülki cavabdehə suallar vermək;

5) maddi sübutların və sənədlərin müayinəsində və hadisə yerinin yoxlanılmasında iştirak etmək;

6) məhkəmə tərəfindən araşdırılan işin halları üzrə məhkəmə istintaqının hər hansı vaxtında ifadə vermək;

7) müdafiəçi olmadığı halda məhkəmə çıxışlarında iştirak etmək;

8) məhkəmə çıxışları qurtardıqdan sonra son sözlə məhkəməyə müraciət etmək və sair hüquqlara malikdir.

Təqsirləndirilən şəxs nəinki ittizam hökmündən, hətta bəraət verici hökmün motivi ilə razılaşmadıqda, hətta bəraət hökmündən və şikayət vermək hüququna malikdir.

Məhkəmə baxışında müdafiəçinin iştirakı –ibtidai istintaqdaq fərqli olaraq məhkəmə baxışında baxılan işin xarakterindən onun təhlükəlilik dərəcəsindən və təqsirləndirilən şəxsin şəxsiyyətindən asılı olmayaraq təqsirləndirilən şəxs bütün hallarda müdafiəçinin köməyindən istifadə etmək hüququna malikdir. Təqsirləndirilən şəxs bilavasitə müdafiəçi seçə bilər, yaxud müdafiəçi təyin olunması haqqında məhkəmə qarşısında vəsatət qaldıra bilər. Bununla belə təqsirləndirilən şəxs iş üzrə məhkəmə baxışının istənilən vaxtında müdafiəçidən imtina edə bilər. Qanun təqsirləndirilən şəxsin müdafiəçidən imtina etməsinə yalnız özünün təşəbbüsü ilə yol verir.

Lakin Azərbaycan Respublikasının CPM-nin 92-ci maddəsində göstərilən işlərdə təqsirləndirilən şəxsin mühasirəsindən və arzusundan asılı olmayaraq məhkəmə baxışında müdafiəçinin iştirakı məcburidir və bunu təmin etmək məhkəmənin borcudur.

Müdafiəçi məhkəmə iclasına gəlmədikdə və onu əvəz etmək mümkün olmadıqda, bir qayda olaraq işin baxılması təxirə salınır. CPM-nin 312-ci maddəsinə əsasən məhkəmə iclasına gəlməyən müdafiəçinin əvəz olunmasına yalnız təqsirləndirilən şəxsin razılığı ilə yol verilir. Qanunvericilik

bu kimi hallarda müdafiə fəaliyyətinin səmərəli həyata keçirilməsini təmin etmək məqsədi ilə yenidən dəvət edilmiş müdafiçiyə  işlə tanış olmaq müdafiəyə hazırlaşmaq üçün zəruri vaxt verilməsini məhkəmədən tələb edir. Müdafiəçinin iştirakı uzun müddət ərzində qeyri mümkün olduqda isə məhkəmə təqsirləndirilən şəxsə başqa müdafiəçi dəvət etməyi təklif etməlidir. Əgər təqsirləndirilən  şəxs yeni müdafiəçidən imtina edərsə, məhkəmə vəkillər kollegiyası vasitəsi ilə təqsirləndirilən şəxs üçün başqa bir müdafiəçi təyin etmək haqqında qərar çıxarmağa haqlıdır.

Azərbaycan Respublikası CPM-nin 92-ci maddəsinə müvafiq olaraq müdafiəçi məhkəmə iclasında təqsirləndirilən şəxsə onun hüquqlarının həyata keçirilməsində kömək edir, sübutların araşdırılmasında iştirak edir, etirazlarını bildirir, sübutlar təqdim edir, təqsirləndirilən şəxs bəraət qazandıran və ya onun məsuliyyətini yüngülləşdirən yeni sübutların tələb olunması və  işə əlavə olunması barədə məhkəmə qarşısında vəsatət qaldırır və işdə iştirak edən digər şəxslərin vəsatətlərinə dair və iş üzrə yoxlanılmış sübutların əhəmiyyəti barəsində öz fikrini məhkəməyə şərh edir. Həmin maddələr daha sonra  qeyd edilir ki, müdafiəçi  məhkəmə çıxışlarında iştirak edir, təqsirləndirilən şəxsə bəraət qazandırmaq və ya onun məsuliyyətini yüngülləşdirmək üçün öz fikirlərini və habelə təqsirləndirilən şəxs haqqında cinayət qanunun tətbiqi, cəza tədbiri və cinayətin mülki hüquqi nəticələri barəsində mülahizələrini məhkəməyə bildirir.

Müdafiəçi – vəkil məhkəmə baxışında fəal iştirak edərək təqsirləndirilən şəxsin hüquqlarının və qanuni mənafeyini müdafiə etməklə yanaşı, məhkəmə istintaqının  hərtərəfli, tam obyektiv aparılmasının təmin edilməsində məhkəməyə yaxından kömək edir. Müdafiə – vəkil işin bütün materialları ilə tanış olmaqla, istintaq prosesində buraxılan nöqsanları aşkar edir, təqsirləndirilən şəxsə bəraət qazandıran və ya onun vəziyyətini yüngülləşdirən halları müəyyən edir, beləliklə də təqsirləndirilən şəxsin

qanuni mənafeyinin təmin edilməsi məqsədi ilə məhkəmə qarşısında vəsatətlər qaldırmağa real imkanlar verir.

Zərər çəkmiş şəxsin, xüsusi ittihamçının mülki iddiaçının mülki cavabdehi və onların nümayəndələrinin məhkəmə baxışında iştirakı.

Məhkəmə baxışının iştirakçıları kimi zərər çəkmiş şəxs, xüsusi iddiaçı, mülki cavabdeh və onların nümayəndələri Azərbaycan Respublikası CPM-nin 87, 89, 93, 101-ci maddələri nəzərdə tutulan hüquqlardan istifadə edirlər.

Mülki iddiaçı və ya onun nümayəndəsi məhkəmə iclasına gəlmədikdə, məhkəmə mülki iddiaya baxmalıdır (CPM-nin 316 m.7).

Zərər çəkmiş şəxsin və ya xüsusi ittihamçının məhkəməyə gəlməsinin nəticələri Azərbaycan Respublikası CPM-nin 315-ci maddəsi ilə nizama salır. Həmin maddəyə əsasən zərər çəkmiş şəxs məhkəmə iclasına gəlmədikdə məhkəmə cinayət prosesi tərəflərinin fikrini dinlədikdən sonra onun iştirakı olmadan işin bütün hallarının tam aydınlaşdırılmasının və onun hüquqları və qanuni mənafeyinin müdafiəsinin mümkün olub-olmasından asılı olaraq, cinayət işinə baxılması və ya onun təxirə salınması haqqında məsələni həll edir. Əgər xüsusi ittihamçı xüsusi ittiham qaydasında cinayət üzrə məhkəmə baxışı zamanı üzürlü səbəblər olmadan təkrarən məhkəmə iclasına gəlmədikdə iş xitam edilməlidir. Məhkəmə zərər çəkmiş şəxsin xahişi ilə işin baxılmasını təxirə salaraq zərər çəkmiş şəxsin məhkəmə iclasına gəlməsini təmin edə və ya zərər çəkmiş şəxsin iştirakı olmadan həmin iclasda işə Baxa bilər. Lakin məhkəmə bütün hallarda zərər çəkmiş şəxsin iclasa gəlməsinin səbəblərini aydınlaşdırmağa borcludur. Məhkəmə zərər çəkmiş şəxsin iştirakı olmadan işə baxılması məsələsini həll edərkən, hər şeydən əvvəl zərər çəkmiş şəxsin məhkəməyə çağırılması barədə xəbərdarlıq edilməsini və onun gəlməməsinin səbəblərini müəyyən etməli və zərər çəkmiş şəxsin iştirakı olmadan işin hallarının tam aydınlaşdırmasının və onun marağının müdafiə edilməsinin mümkünlüyü məsələsini müzakirə etməlidir.

Zərər çəkmiş şəxs ittihamın məhkəmə iclasında başlananadək üzürlü səbəblərə görə təkrarən gəlməməsinin mümkünsüzlüyünü bildirməmişsə, mhkəmə öz qərarı ilə onun barəsində məcburi gətirilmə haqqında qərar çıxara bilər.

Mülki cavabdeh cinayət prosessual qanunla ona verilmiş səlahiyyətlərdən istifadə edərək öz mənafeylərini müdafiəsi məqsədi ilə məhkəmə baxışı zamanı məhkəmə iclaslarında iştirak edir.

CPM0nin 313-cü maddəsinə əsasən mülki cavabdeh və ya onun nümayəndəsinin məhkəmə iclasına gəlməməsi məhkəmə baxışının davam etdirilməsinə və mülki iddianın baxılmasına mane olmur.

**2-ci sual üzrə nəticə:** Beləliklə biz mühazirənin ikinci sualında təqsirləndirilən şəxsin, müdafiəçinin, zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehi və onların nümayəndələrinin məhkəmə baxışında iştirakının ümumi şərtlərini qeyd etdik. Gördüyümüz kimi məhkəmə baxışının ümumi şərtlərindən biri də proses iştirakçılarının hüquq və azadlıqlarının təmin edilməsi ilə əlaqədar onların məhkəmə baxışı qanunla onlara verilmiş hüquqlardan tam həcmdə istifadə etmələrini təmin edilməsindən ibarətdir.

### *Sual 3. Məhkəmə baxışının hədləri, məhkəmə baxışının təxirə salınması və dayandırılmasının əsasları və prosessual qaydası.*

Məhkəmə baxışının – həddi Azərbaycan Respublikasının CPM-nin maddəsi ilə müəyyən edilir. Belə ki, məhkəmə baxışı zamanı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə yalnız təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittiham daxilində baxılır.

Bu müddəadan belə nəticə çıxır ki, məhkəməyə verilməyən şəxs haqqında məhkəmə hökm çıxara bilməz, habelə təqsirləndirilən şəxs barəsində hökm yalnız onun məhkəməyə verilməsi haqqında olan ittiham dairəsində çıxarıla bilər. Əgər hakim ittiham aktının hər hansı bəndini çıxararsa, yaxud daha yüngül cinayət üstündə cinayət qanunu tətbiq edərsə, məhkəmə baxışının həddi həmin dəyişikliklər nəzərə alınmaqla müəyyən edilir. Deməli, məhkəməyə vermə haqqında qərarı və məhkəmə baxışının həddini müəyyən edən prosessual sənəddir.

Konkret cinayətin törədilməsində kimi bilavasitə məhz nədə ittiham edilməsi həmin iş üzrə istintaq orqanı tərəfindən tərtib edilmiş ittiham aktı ilə müəyyən edilir. Bu səbəbdən məhkəmə baxışı bir qayda olaraq ittiham aktının müəyyən dairəsi ilə məhdudlaşır və məhkəmə bu dairədən kənara çıxa bilməz. Qanunun bu tələbi təqsirləndirilən şəxsə ona elan olunan ittihamdan özünü müdafiə etmək hüququnu təmin etməklə yanaşı məhkəmə tərəfindən işin hallarının hərtərəfli tam obyektiv araşdırılmasına şərait yaradır.

Bəzən məhkəmə istintaqı prosesinində sübutların araşdırılması nəticəsində ibtidai istintaqda təqsirləndirilən şəxsə elan olunmuş və ittiham aktında öz əksini tapmış ittihamın dəyişdirilməsi zərurəti meydana çıxa bilər. Lakin qanunvericilik məhkəmə baxışında ittihamın dəyişdirilməsinə bütün hallarda deyil yalnız təqsirləndirilən şəxsin vəziyyəti araşdırılmadıqda və onun müdafiə hüququ pozulmadıqda yol verir. Belə ki, CPM-nin 318.1-ci maddəsində göstərilir ki, "Məhkəmə baxışı nəticəsində məhkəmə təqsirləndirilən şəxsin əməlini ağır cinayətdən daha yüngül cinayət əməlinə tövsif etmək, habelə ona qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndləri çıxarmaq hüququna malikdir". Əks halda, yəni məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, dövlət ittihamçısının vəsatəti əsasında məhkəmə irəli sürülmüş ittiham üzrə məhkəmə baxışını dayandırır. Bu halda məhkəmə müvafiq olaraq cinayət işinin və ya sadələşdirilmiş icraat materiallarının 10 gün müddətində təqsirləndirilən şəxs başqa ittihamın irəli sürülməsi məsələsinə baxmaq üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi barədə əsaslandırılmış qərar çıxarır. Bundan sonra prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən təqsirləndirilən şəxsə qarşı yeni ittiham irəli sürülərsə, məhkəmə baxışı məhkəmə iclasında həmin ittihamın elan olunması ilə təzələnir və məhkəmə baxışının davam etdirilməsi ümumi qaydada həyata keçirilir. Belə halda məhkəmə ibtidai istintaqı aparan müstəntiq və prosessual rəhbərliyi həyata keçirən prokurur haqqında xüsusi qərar çıxarır və müvafiq tədbirlər görülməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının rəhbərinə və Azərbaycan Respublikasının baş Prokuroruna göndərilir.

Yeni şəxs haqqında cinayət işinin başlanması barədə məhkəmə motivli qərar çıxarır, istintaq, yaxud təhqiqat aparmaq üçün işi prokurora göndərir. Məhkəmə bu qərarından, haqqında həmin qərarın çıxarılmış şəxslər tərəfindən şikayət, yaxud prokurora verilə bilər.

Məhkəmə cinayət məsuliyyətinə cəlb edilməmiş yeni şəxs haqqında cinayət işinin başlanması iki halda ola bilər:

a) şahid, tərcüməçi, ekspert tərəfindən bilə-bilə yalan ifadə verilməsi və ya rəy verilməsi aşkar edildikdə;

b) cinayət məsuliyyətinə cəlb edilmiş şəxs tərəfindən cinayət edilməsi faktı müəyyən edildikdə.

Məhkəmə yeni şəxs haqqında cinayət işinin başlanması qərarına gəlmək üçün hər şeydən əvvəl həmin şəxsin hərəkətində cinayətin əlamətlərini göstərən faktiki məlumatlara əsaslanmalıdır. Azərbaycan Respublikasının cinayət prosessual qanunvericiliyinin tələbinə müvafiq oldaraq bilə-bilə yalan ifadə vermiş, yaxud da tərcümə etmiş və ya rəy vermiş, şahid, tərcüməçi və ya ekspert haqqında cinayət işinin başlanması yalnız hökm çıxarması ilə eyni ifadə vermək üstündə cinayət məsuliyyətinə cəlb etmək iş üzrə həmin şahidin, ekspertin ifadəsini bir sübut kimi aradan qaldırır. Buna görə də şahidi, eksperti bilə-bilə yalan ifadə vermək üstündə cinayət məsuliyyətinə cəlb etmək haqqında qərardan məhkəmə istintaqında deyil, hökmün çıxarılması ilə eyni vaxtda olmalıdır. Bu zaman məhkəmə şahidin ifadəsinin, ekspertin rəyini ayrılıqda deyil, işdə olan bütün sübutların məcmusu əsasında qiymətləndirməyə imkan tapır. Əgər məhkəmə şahidi, eksperti bilə-bilə yalan ifadə vermək üstündə istintaqda cinayət məsuliyyətinə cəlb edərsə, məhkəmə baxışı qurtarmamış həmin ifadənin düzgün və ya yalan olması haqqında öz fikrini ifadə etmiş olur.

Halbuki, məhkəmə iş haqqında gəldiyi nəticələri yalnız müşavirə otağında hökm çıxararkən bildirməlidir.

Məhkəmə baxışının ümumi şərtlərindən biri də məhkəmə baxışının təxirə salınması və məhkəmə icraatın dayandırılmasından ibarətdir.

Azərbaycan Respublikasının CPM-nin 319cu maddəsinə əsasən məhkəmə icraatına çağırılmış şəxslərdən hər hansı birinin məhkəmə iclasına gəlməməsinə görə və ya məhkəmənin təşəbbüsü ilə, yaxud tərəflərin vəsatətləri əsasında yeni sübutların tələb edilməsi zərurəti

yaranarsa və bununla əlaqədar məhkəmə baxışında davam etmək mümkün olmursa məhkəmə:

1) məhkəmə təxirə salınma müddəti göstərməklə məhkəmə baxışını təxirə salır;

2) məhkəmə iclasına şəxsin gəlməsi və yeni sübutların tələb edilməsi ilə əlaqədar lazımi tədbirlər görür.

Cinayət prosessual qanunvericiliyi ilə məhkəmə baxışını qurtarmaq mümkün olmadığı hallarda nəzərdə tutulmuşdur, belə ki, CPM-nin 319.2 maddəsində göstərilir: Təqsirləndirilən şəxs gizləndikdə və ya xroniki, yaxud digər ağır xəstəliyə tutulduğuna görə onun məhkəmə iclasına gəlməsi mümkün qeyri-mümkün olduqda məhkəmə həmin təqsirləndirilən şəxs tapılanadək və ya saxlanadək onun barəsində cinayət işinin icraatını dayandırır, digər təqsirləndirilən şəxslər barəsində isə məhkəmə baxışının mümkün olduğu halda davam etdirir. Məhkəmə baxışı ayrı-ayrılıqda aparılması bütün hallarını hərtərəfli, tam və obyektiv araşdırmasına Mane olursa, bu halda məhkəmə cinayət işinin bütün icraatını dayandırır.

Əgər cinayət işinin icraatı şəxsin tanınması ilə əlaqədar dayandırılarsa məhkəmə həmin təqsirləndirilən şəxsin axtarışını elan etmək və bu məsələ ilə qəbul edilmiş qərarları onun icrasına nəzarəti həyata keçirmək üçün ibtidai araşdırmaya rəhbərlik edən prokurora göndərməlidir. Məhkəmə baxışı qətimkan tədbiri barədə məhkəmə məsələləri həll etməlidir. Məhkəmə baxışı zamanı qətimkan tədbiri  barədə məhkəmə məsələləri həll etməlidir. Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin və onun nümayəndəsinin izahatlarını habelə dövlət ittihamçısının zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) fikrini dinləyərək məhkəmə öz qərarı ilə təqsirləndirilən şəxs barəsində çətinlik tədbirini dəyişə və ya ləğv edə bilər.

Məhkəmə baxışı zamanı məhkəmə tərəfdən həll edilən bütün məsələlər üzrə qərar çıxarılır.

Müşavirə otağında ayrıca sənədlər qismində tərtib edilən və məhkəmənin bütün tərkibi tərəfindən imzalanan aşağıdakı qərarları çıxarılır:

1. Cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi və ya onun dayandırılması barədə.

2. Qətimkan tədbirinin seçilməsi dəyişdirilməsi və ya ləğv edilməsi barədə.

3. Etirazlar barədə.

4. Ekspertizanın təyin edilməsi barədə.

Məhkəmə baxışı zamanı qəbul edilən bütün digər qərarlar məhkəmənin mülahizəsinə görə hakimlərin müşavirəsindən sonra məhkəmə iclasının protokolunda qeyd edilməklə yerində çıxarıla bilər. Məhkəmə tərəfindən çıxarılmış qərarlar dərhal izah elan edilməlidir. Qanunla nəzərdə tutulmuş hallarda bu qərarlar dərhal qüvvəyə minir.

**3-cü sual üzrə nəticə:** Beləliklə qeyd etmək lazımdır ki, məhkəmə baxışı zamanı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə yalnız təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihama dair baxılır.

Lakin buna baxmayaraq məhkəmə baxışının hədləri cinayət prosessual qanunu ilə müəyyən edilib və məhkəmə qanunauyğun müəyyən edilmiş qaydada təqsirləndirilən şəxsin əmlakı daha yüngül cinayət əməlinə tövsif edə bilər və əks halda işi prokurorun vəsatəti əsasında yeni ittihamçının irəli sürülməsi ilə əlaqədar məsələyə baxınca icranı dayandıra bilər.

# N Ə T İ C Ə

Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin həyata keçirilməsinə yönəldilmişdir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, Azərbaycan Respublikasının Konstitusiyasında və bu Qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin I hissəsinə uyğun olaraq hakimlər müstəqildirlər və yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər.

Məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanmalıdır (Məhkəmələr və hakimlər haqqında Qanun. Bakı, 1997-ci il, mad. 3-9).

Bu günkü mühazirədə biz məhkəmə baxışının ümumi şərtlərini qeyd etdik və müəyyən etdik ki, yuxarıda baxdığımız şərtlər cinayət işlərinin məhkəmə baxışı zamanı iştirakçılarının hüquq və azadlıqlarının təmin edilməsinə zəmin yaradır. Eyni vaxt cinayət işinin tam, hərtərəfli obyektiv baxılmasına və ədalətli hökm çıxarılmasına yönəldilmişdir.